**Azərbaycan – Yunanıstan münasibətləri**

**Qısa tarixi məlumat:**

Yunanıstan Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımışdır. Diplomatik münasibətlər 2 aprel 1992-ci ildə qurulmuşdur. Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi 1993-cü ilin 27 may tarixindən fəaliyyət göstərir. Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı Səfirliyi 2004-cü ilin 16 aprel tarixində açılmışdır. Azərbaycan Respublikasının Yunanıstandakı Səfiri Rəhman Mustafayev Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 2017-ci ilin 23 iyun tarixində tutduğu vəzifədən geri çağrılmışdır. Yunanıstanın Azərbaycandakı Səfiri – Nikolaos Kanellos.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**<u>Hökumət başçıları:</u>**

**20-22 iyun 2004-cü il** – Yunanıstan Respublikasının Prezidenti cənab Konstantinos Stefanopulosun Azərbaycaba rəsmi səfəri.

**12-16 avqust 2004-cü il** – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Yunanıstana işgüzar səfəri.

**16-17 fevral 2009-cü il** - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Yunanıstana rəsmi səfəri.

**5-6 aprel 2011-ci il** – Yunanıstan Respublikasının Prezidenti cənab Karolos Papuliasın Azərbaycana dövlət səfəri.

**16-17 iyun 2014-cü il** - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Yunanıstana dövlət səfəri.

**<u>Parlamentlər:</u>**

**23-26 yanvar 2007-ci il** – Azərbaycan-Yunanıstan Parlamentlərarası Dostluq Qrupunun sədri Konstantinos Tsiarasın Azərbaycana rəsmi səfəri.

**9-11 iyun 2008-ci il** – Azərbaycan Respublikasının Milli Məclisinin sədri Oqtay Əsədovun Yunanıstana işgüzar səfəri.

**19-20 iyun 2008-ci il** – Yunanıstan Parlamentinin vitse spikeri Elsa Papadimitriunin Azərbaycana işgüzar səfəri.

**5-9 may 2009-cu il** - Azərbaycan-Yunanıstan Parlamentlərarası Dostluq Qrupunun sədri Konstantinos Tsiarasın Azərbaycana rəsmi səfəri.

**1-2 sentyabr 2011-ci il** - Yunanıstan Parlamentinin və AŞ-nın Hüquqi Məsələlər və İnsan Haqqları Komissiyasının üzvü Elsa Papadmitriunun Azərbaycana işgüzar səfəri.

**24-27 noyabr 2013-cü il** – Azərbaycan-Yunanıstan Parlamentlərarası Dostluq Qrupunun sədri Hadi Rəcəblinin Yunanıstana rəsmi səfəri.

**19-22 aprel 2016-cı il** - Azərbaycan-Yunanıstan Parlamentlərarası Dostluq Qrupunun sədri Hadi Rəcəblinin Yunanıstana rəsmi səfəri.

**<u>Nazirlər:</u>**

**10-11 aprel 1997** – Yunanıstan Respublikasının Xarici işlər naziri Teodoros Panqalosun Azərbaycana rəsmi səfəri.
**5-6 iyul 2006-cı il** – Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifovun Yunanıstana rəsmi səfəri.

**5-6 iyul 2007-ci il** – Azərbaycan Respublikasının İqtisadi İnkişaf Naziri Heydər Babayevin Yunanıstana rəsmi səfəri.

**2 avqust 2007-ci il** – Yunanıstan Respublikasının İnkişaf naziri Dimitris Siufasın Azərbaycana rəsmi səfəri.

**17 mart 2008-ci il** – Yunanıstan Respublikasının İnkişaf naziri Xristos Foliasın Azərbaycana rəsmi səfəri.

**1-2 iyul 2009-cu il** – Yunanıstan Respublikasının Xarici işlər naziri Dora Bakoyannisin Azərbaycana işgüzar səfəri.

**17-18 sentyabr 2009-cu il** – Yunanıstan Respublikasının Fövqəladə hallar naziri cənab Muzasın Azərbaycana işgüzar səfəri.

**1-2 dekabr 2009-cu il** – Azərbaycan Respublikasının Xarici işlər naziri Elmar Məmmədyarovun Yunanıstana işgüzar səfəri.

**21-23 fevral 2010-cu il** – Azərbaycan Respublikasının Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun Yunanıstana rəsmi səfəri.

**28 iyun - 1 iyul 2010-cu il** – Azərbaycan Respublikasının Sənaye və Enerji Naziri Natiq Əliyevin Yunanıstana işgüzar səfəri.

**24-25 fevral 2011-ci il** - Azərbaycan Respublikasının Xarici işlər naziri Elmar Məmmədyarovun Yunanıstana ilk rəsmi səfəri.

**12-15 sentyabr 2011-ci il** – Yunanıstan Respublikasının Səhiyyə naziri Andreas Loverdosun Azərbaycana işgüzar səfəri.

**24 oktyabr 2011-ci il** – Yunanıstan Respublikasının Ətraf mühit, enerji və iqlim dəyişikliyi naziri Yorqos Papakonstantinunun Azərbaycana işgüzar səfəri.

**10 may 2012-ci il** – Azərbaycan Respublikasının Gənclər və idman naziri Azad Rəhimovun Yunanıstana işgüzar səfəri.

**29-30 aprel 2013-cü il** - Yunanıstan Respublikasının Xarici işlər naziri Dimitris Avromopulosun Azərbaycana rəsmi səfəri.

**19 may 2013-cü il** – Yunanıstan Respublikasının Baş Naziri Antonis Samarasın Azərbaycana işgüzar səfəri.

**10 iyun 2013-cü il** – ARDNŞ-nin Prezidenti Rövnəq Abdullayevin Yunanıstana işgüzar səfəri.

**20-21 dekabr 2013-cü il** – ARDNŞ-nin Prezidenti Rövnəq Abdullayevin Yunanıstana işgüzar səfəri.

**9-14 aprel 2014-cü il** - Azərbaycan Respublikasının Gənclər və idman nazirinin müavini İntiqam Babayevin rəhbərliyi ilə nümayəndə heyətinin Yunanıstana səfəri.

**18 -19 iyun 2014 -** Azərbaycan Respublikasının Gənclər və idman naziri Azad Rəhimovun Yunanıstana rəsmi səfəri.

**27 sentyabr 2014-cü il** - Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Yunanıstana işgüzar səfəri.

**10 noyabr 2014-cü il** - ARDNŞ-in Prezidenti Rövnəq Abdullayev Yunanıstana işgüzar səfəri.

**12 dekabr 2014-cü il** - Yunanıstanın Saloniki şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 31-ci iclasında iştirak məqsədilə Xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev işgüzar səfəri.

**12 fevral 2015-ci il** - Yunanıstan Respublikasının İstehsalın Yenidənqurması, ətraf mühit və enerji naziri Panayiotis Lafazanis Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında iştirak etmək məqsədilə Azərbaycan işgüzar səfəri.

**17 noyabr 2015-ci il** - ARDNŞ-nin vitse-prezidenti Vitaliy Bəylərbəyovun rəhbərliyi ilə nümayəndə heyətinin Yunanıstana işgüzar səfəri.

**2-3 fevral 2016-cı il** - Yunanıstanın Xarici İşlər Naziri Nikos Kotzias Azərbaycana rəsmi səfər etmişdir.

**19-22 aprel 2016-cı il** - Azrbaycan Respublikasının Gənclər və İdman Naziri Azad Rəhimovun Yunanıstana işgüzar səfəri.

**17 may 2016-cı il** - Baş Nazirin birinci müavini, Cənub Qaz Dəhlizi üzrə dövlət komissiyasının sədri Yaqub Eyyubovun rəhbərlik etdiyi nümayəndə heyəti TAP layihəsinin təməlatma mərasimində iştirak etmək məqsədi ilə Saloniki şəhərinə işgüzar səfəri.

**25-28 may 2016-cı il** - Azərbaycan Respublikasının Energetika Naziri Natiq Əliyev, Azərbaycan-Yunanıstan Birgə Hökumətlərarası Komissiyasının 4-cü iclasında iştirak etmək məqsədiə Yunanıstana işgüzar səfəri.

**30 sentyabr 2016-cı il** - ARDNŞ Prezidenti R.Abdullayevin rəhəbrlik etdiyi nümayəndə heyəti DESFA-nın özəlləşdirilməsi ətrafında yaranmış problemi müzakirə etmək məqsədilə Yunanıstana işgüzar səfəri.

**23 fevral 2017-ci il** - Yunanıstanın Ətraf Mühit və Enerji Naziri Girogos Stathakisin Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 3-cü iclasında iştirak məqsədilə Azərbaycana işgüzar səfəri.

**25 oktyabr 2018-ci il** - Yunanıstanın İnfrastruktur və Nəqliyyat Nazirinin müavini Nikolaos Mavraganisin QDİƏT üzv dövlətlərinin nəqliyyat nazirlərinin iclasında iştirak etmək məqsədilə Azərbaycana işgüzar səfəri.

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan – Yunanıstan parlamentlərarası işçi qrupları fəaliyyət göstərir. Azərbaycan tərəfindən qrupun 8 üzvü var, rəhbəri – Hadi Rəcəbli.

Yunanıstan Parlamentində Yunan-Azərbaycan Dostluq Qrupu say tərkibinə görə ən böyük dostluq qruplarından biridir. Qrupun 24 üzvü var, rəhbəri – Konstantinos Tzavaras.

**Sahələr üzrə əməkdaşlıq:**

Azərbaycan-Yunanıstan İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının indiyədək 4 iclası keçirilmişdir. Sonuncu iclas 26-27 may 2016-cı ildə Afinada keçirilmişdir. Yunanıstanda hökumətin tərkibində dəyişiklik, Azərbaycanda isə həmsədr, keçmiş Energetika Naziri Natiq Əliyevin vəfatından sonra hazırda Komissiyanın Azərbaycan və Yunanıstan tərəfdən həmsədrləri təyin edilməmişdir.

**Azərbaycan və Yunanıstan arasında ticarət dövriyyəsi**

(Azərbaycan DSK-nın istinadən, min $)

| | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|---|
| **İxrac** | 833834.5 | 810325.4 | 255988.3 | 145748.3 | 201377.2 | 159548.2 |
| **İdxal** | 15204.5 | 4780.1 | 62789.7 | 16175.5 | 15316.0 | 12135.8 |
| **Ticarət dövriyyəsi** | 849039.0 | 815105.5 | 318778.0 | 161923.8 | 216693.2 | 171684 |

2012-ci ildən etibarən Yunanıstan-Azərbaycan Ticarət Palatası fəaliyyət göstərir və 40-dan çox aktiv üzvü var.

Enerji sahəsində iki ölkə arasında əməkdaşlıq əsasən Cənub Qaz Dəhlizinin TAP layihəsi üzrə inkişaf edir. Hazırda TAP-ın Yunanıstan seqmentində bütün marşrut boyunca boruların döşənməsi başa çatdırılmış, tamamlama işləri aparımaqdadır.

Yunanıstan və Azərbaycan arasında Erasmus+ İnternational Mobility layihəsi üzrə Azərbaycanın ADA Universiteti və Bakı Ali Neft Məktəbi Yunanıstanın Qərbi Attika Universiteti ilə tələbə və müəllim mübadiləsini həyata keçirirlər.

Azərbaycan və Yunanıstan arasındakı ikitərəfli əlaqələrdə mədəniyyət sahəsində əməkdaşlıq ən əsas elementlərindən biridir və son dövrlərdə bu sahədə əməkdaşlıq xeyli fəallaşmışdır. Səfirlik tərəfindən Azərbaycan mədəniyyəti və musiqisinin təbliği istiqamətində 2010-2019-ci illərdə caz, klassik, xalq musiqimizdən ibarət 20-ə yaxın konsert təşkil edilmiş, Azərbaycanlı və yunan musiqiçiləri arasında birgə layihələr keçirilmişdir.

AR Gənclər və İdman Nazirliyinin və Səfirliyin dəstəyi ilə 2013-cü ilin dekabr ayında Yunanıstan-Azərbaycan Gənclər Mərkəzi təsis edilmişdir və Mərkəz iki ölkənin gəncləri arasında sıx əlaqələrin qurulması, birgə araşdırma layihələrin keçirilməsində vacib rol oynayır.

2017-ci ildə Yunanıstanın Saloniki şəhərində yaşayan Azərbaycan icmasının üzvlərinin və yunanların birgə müraciətinə əsasən şəhər məhkəməsinin müvafiq qərarı ilə “Qala” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti təsis edilmişdir. Cəmiyyətin sədri Rəşid Məmmədovdur. Yarandığı gündən etibarən “Qala” cəmiyyəti Diaspora üzrə Dövlət Komitəsi ilə sıx təmasdadır.

**İmzalanmış saziş və müqavilələr:**

**26 iyul 1994, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq haqqında Saziş

**11 aprel 1997, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təhsil, mədəniyyət və elm sahələrində əməkdaşlıq haqqında Saziş

**11 aprel 1997, Bakı** - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yunanıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

**11 aprel 1997, Bakı** - Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında səfirliklərin konsulluq şöbələrinin funksiyaları haqqında Saziş

**11 aprel 2003, Bakı** - 2002-2005-ci illər üçün Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair Proqram

**21 iyun 2004, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

**21 iyun 2004, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş

**21 iyun 2004, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş

**07 aprel 2005, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

**02 avqust 2007, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum

**16 fevral 2009, Afina** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergi tutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya

**16 fevral 2009, Afina** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

**16 fevral 2009, Afina** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş

**16 fevral 2009, Afina** - Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliyi sahəsində Anlaşma Memorandumu

**23 fevral 2010, Afina** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

**05 aprel 2011, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında dəniz nəqliyyatına dair Saziş

**05 aprel 2011, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

**05 aprel 2011, Bakı** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında 2011-2012-2013-cü illər üçün elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair Proqram

**16 iyun 2014, Afina** - Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş

**16 iyun 2014, Afina** - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Yunanıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında Azərbaycanın Avropa İttifaqı məsələləri üzrə əməkdaşlıq haqqında Memorandum

**20 aprel 2016, Afina** – Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Yunanıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında idman sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu